# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №67-68 (1245-1246) 06 noyabr 2024-cü il Qiyməti 1 manat

Qəzet 1999-cu ilin oktyabrından çıxır


Azərbaycan ... kitabxanası

# 8 NOYABR – ZƏFƏR GÜNÜ

## ZAMANIN HEYKƏLİ - SÖZ

*(esse)*

Heykəltəraş dünya boyu ad-san qazana bilər. Bəlkə, dünya bilməz ki, heykəltəraş zamanın gücündədir, zamanın timsalıdır.

Heykəllər zamanın təri ilə yaranır.

Ecazkar heykəllər önündə dayananlar bilməzlər ki, qəlpə-qəlpə qopan daşları heykəltəraş necə yonub. Adı bir daşa - o daş lap bahalı daş olsun, qranit olsun, mərmər olsun, nə dəxli var - insan cizgiləri vermək, bu cizgilərlə insanın daxili-mənəvi dünyasındakı, beyin qırışlarındakı təfəkkürü köçürmək, görüntüyə çevirmək möcüzədir.

Ən böyük heykəltəraş elə Zamandır.

Zaman özünün obrazını gələcəyə məxsus olan İnsanın özü ilə yaradır. Zaman özünə bənzərlərin və əbədiyyəti təmsil edənlərin obrazını yaradır.

Zaman qəza-qədərləri, keçilməzlikləri, əzabları və fərəhləri ilə öz cizgilərində görünə bilən İnsanın heykəlini yaradır.

Zaman canlı - düşünən, danışan, fikir yükləri ilə keçmişə və gələcəyə daşınan İnsan heykəli yaradır.

Zaman sevdiyinin heykəlini yaradır, həm də öz zamanında yaradır.

***Əli Rza XƏLƏFLİ***
***2009***